

**Rəsul Rza yaradıcılığı çox gözəldir, yüksək səviyyədədir, amma eyni zamanda mürəkkəbdir, çox çətindir... Rəsul Rza çox dərin şairdir, onun yaradıcılığının Azərbaycan xalqı üçün əhəmiyyəti böyükdür.**

**H.Əliyev**

# Sabahımızın poeziyası

İyirminci əsrdə Azərbaycan poeziyasını yeni bədii yüksəkliyə qaldıran xalq şairi Rəsul Rza ictimai şüurumuzun formalaşmasına, təfəkkür tərzimizin təşəkkülünə güclü şəkildə təsir göstərmiş şəxsiyyət idi.

Rəsul Rza şeirləri ilə yaradıcılığına elə bir möhür vurub ki, biz onu oxuduqca kimliyini anlayır, amalına, məqsədinə bələdləşirik:

*Mən yolçuyam,*
*Mən yoldayam.*
*Od nə çəkdi*
*Küldən soruş!*
*Hansı şeirim,*
*Hansı sözüm*
*yaşayacaqsa məndən sonra*
*Mən bilmirəm,*
*Eldən soruş.*

Bəli, bu, Rəsul Rzanın öz yaradıcılığına vurduğu elə bir bədii möhürdür ki, onun şeirləri ədəbiyyatımıza hava, su kimi dolur, axşamlar Günəş kimi bataraq səhərlər yenidən doğulur. Rəsul Rza poeziyası yaşayan poeziyadır. Bugünümüzün, sabahımızın poeziyasıdır.

Tənqidçi Qulu Xəlilov ötən əsrin 60-cı illərində yazırdı: "Rəsul Rza çox az əsərlərində, bəlkə də heç birində deməyib ki, vətən, sən mənim canımsan, gözümsən. Lakin onun bütün yaradıcılığı xalqa, vətənə xidmətin ən ləyaqətli nümunəsidir... Rəsul Rzanın şeirimizə gətirdiyi forma poeziyamızda çox az, bəsit şəkildə işlənib. Rəsul Rza bu formanı gətirməklə şeirimizin ifadə tərzini çox-çox zənginləşdirib". Azərbaycan dilinin saflığı, qorunması, işlədilməsi uğrunda mübarizə aparan fədakar insanlardan biri məhz Rəsul Rza olub.

Rəsul Rza 19 may1910-cu ildə Göyçay şəhərində ziyalı ailəsində anadan olmuşdur. Məmmədxanovlar nəslindən olan atası İbrahim, eləcə də poetik dünyası olan anası Məryəm maarifpərvər, elmə həvəskar insanlar idilər.

Atasını erkən itirən Rəsul anasının və yaxın qohumlarının himayəsində boya-başa çatmışdır. İbtidai təhsilini Göyçayda almışdır. Əmək fəaliyyətinə çox erkən başlayan Rəsul Göyçay şəhərində kitabxana müdiri işləyəndə 14 yaşı var idi. Elə kitablarla dostluğu da o günlərdən başlamışdı. Yazmağa böyük həvəsi var idi. İlk şeiri 1929-cu ildə Tiflisdə "Dan ulduzu" jurnalında dərc edilmişdir.

Artıq onun imzası dövrün bütün mətbuat orqanlarında göründü. Tiflisdə Zaqafqaziya Kommunist

Universitetinin koperasiya şöbəsində təhsil alan Rəsul Rza sonralar Bakıya köçərək Azərbaycan Elmi-Tədqiqat İnstitutunun aspiranturasında oxumuş, 1934-1937-ci illərdə isə Moskvada Kinematoqrafiya İnstitutunda təhsilini davam etdirmişdir. Onun vəzifə pillələri də müxtəlif olmuşdur. Bakı kinostudiyasında çalışmış, Dövlət Filarmoniyasının müdiri olmuş, Kinematoqrafiya İdarəsində rəis, nazir, Azərbaycan Sovet Ensiklopediyasının baş redaksiyasında baş redaktor və digər vəzifələrdə səmərəli fəaliyyət göstərmişdir.

Səməd Vurğundan sonra Yazıçılar İttifaqına rəhbərlik etmişdir. Repressiyaların qızğın dövründə - 1938-1939-cu illərdə Azərbaycan Yazıçılar İttifaqının sədri olan Rəsul Rza həm də dəfələrlə Azərbaycan Ali Sovetinin deputatı seçilmişdi.

Əlli illik fəaliyyəti dövründə Azərbaycanda, Rusiyada və başqa ölkələrdə 50-dən artıq kitabı nəşr olunmuşdur. Ölümündən bir gün qabaq son şeirini yazmışdır. Həmin ədəbi yadigarın sonluğu belədir:

***Günlər var çeşid-çeşid:***
***İnciklisi bu yanda,***
***Fərəhlisi o yanda.***
***Belə olurmuş demək,***
***Ömrün, günün sonunda.***

Azərbaycan poeziyasının inkişafında göstərdiyi xidmətləri dövlət tərəfindən yüksək qiymətləndirilmiş, ona müxtəlif fəxri adlar, dövlət mükafatları verilmiş, üç dəfə Lenin ordeni və medallarla təltif edilmişdir.

1934-cü ildən Azərbaycan Yazıçılar Birliyinin üzvü olan Rəsul Rza İkinci Dünya müharibəsi illərində cəbhədə göstərdiyi fəaliyyətə, əsgərlər qarşısında müntəzəm çıxışlarına, sülh mövzusundakı şeirlərinə görə 1945-ci ildə əməkdar incəsənət xadimi fəxri adına layiq görülmüşdür. 1980-ci ildə isə Sosialist Əməyi Qəhrəmanı adını aldı. Təbii ki, Azərbaycanın şair və yazıçılarının dövrün ən yüksək adına layiq görülməsi ümummilli lider Heydər Əliyevin xidməti idi.

Rəsul Rza 1 aprel 1981-ci ildə vəfat etmişdir. Onun həyata əlvida dediyi günün zarafat və yumorla əlaqədar 1 aprelə təsadüf etməsi də mənalıdır. Rəsul Rza poeziyasının pərəstişkarları şairin bu əbədi gedişini də zarafat kimi yozdular.

Bəllidir ki, 1937-ci ilin insanları gedər-gəlməzə göndərdiyi faciəli günlərində Rəsul Rza Yazıçılar İttifaqının plenumunda, eləcə də Ali Sovetin sessiyasında dil məsələsinə toxunaraq çox kəskin çıxış etmişdir. O, dilimizə yabançı sözlər gətirən, onun şirin ahənginə ləkə salan bir sıra cızma-qaraçılara, eləcə də ana dilində danışmağı özünə ar bilənlərə üz tutaraq demişdir: "Öz ana dilini yaxşı bilməyən insan başqa dilləri də lazımi dərəcədə mənimsəyə bilməz". O, mətbuat səhifələrində işlədilən "çoşka", "çaşka", "produkt" kimi sözləri misal gətirərək onun Azərbaycan dilində olan qarşılığını göstərmişdir. Məlumdur ki, böyük şairimiz həm də dilimizə çoxlu təzə söz, ifadə gətirmişdir. Həmin uğurlu sözlər ilərdir ki, tam vətəndaşlıq hüququ qazanıblar. Məsələn, Rəsul Rza 30-cu illərdə dilimizdə bu sözləri işlətmişdir: "göydələn", "əyləc", "işıqfor", "çimərlik" və sairə.

Gəlin etiraf edək ki, Rəsul Rza həm də o cəsarətin, ürəyin, o təpərin, kişiliyin yiyəsi idi ki, dünya, aləm bolşevik tufanının qopardığı sellərdə çırpınanda o, Gəncənin qubernatoru olmuş Xudat bəyin qızı Nigar xanımı sevirdi. Onu gözləyəcək ağır həyatdan çəkinmədən bu bəy qızını özünə həyat, ömür-gün dostu seçmişdi.

Unutmayaq ki, bu, 34-cü illər idi, bu, 37-yə gedən qanlı-qadalı, tuthatut qoparan illər idi. Və bu bəy nəvəsi, bəy qızı olan, axır nəticədə arxasız qalmış Nigar Rəfibəyli təzyiqlərdən, təqiblərdən, ölümlərdən sıyrılaraq onun qarşısını məhəbbətlə kəsən alagözlü Rəsula inandı.

Bu dövrdə mətbuat Nigar Rəfibəylinin ünvanına nələr çap etmədi?! Hətta məşhur şairlər də bu nakişiliyə qol qoydular. Onu "madmuazel", "varlı sinfin tör-töküntüsü", "bəy qızı", daha nələr, nələr adlandırırdılar.

Əlbəttə, mən mürgülü günləri çox tərpətmək istəmirəm, amma elə həqiqətlər var ki, onu mütləq söyləmək gərəkdir. Bu zərbələrin, təhqirlərin yol açdığı bir ünvan da Rəsul Rza özü idi. Amma böyük şairimiz heç bir zaman öz əzəmətini, vüqarını itirmədi. Bir də o, bu hücumların qarşısında tək deyildi.

Ən azı ona görə ki, Nigar Rəfibəyli kimi könül sirdaşı, söz sərrafı olan yarı vardı. Onun yaradıcılığına bələdləşdikcə sanıram ki, bütün bunlarla bərabər Rəsul Rza ömrü boyu tənha olub. Öncədən bu tənhalıq taleyinin acıları ilə başlayıb, içində çox dərd çəkib, lakin kimsəyə bildirməyib.



Yetimçiliyin "qapazları", taleyin min bir əzabı, qeyri-adi ilahi bir sevgi və bu məhəbbətin ucbatından ona atılan oxlar, yaxın dostların itkisi. Bir tərəfdən şöhrət yaxasından asılırdı, digər tərəfdən haqsız tənqidlərə məruz qalırdı. Bir tərəfdən "Lenin" poemasını yazan Rəsul Rza, o biri tərəfdə "Qızılgül olmayaydı", "Dana və balaca qız" əsərlərini, "Rənglər" silsiləsindən şeirlərini yazırdı:

***Müşfiq yox,***
***Mikayıl yox,***
***Faruq yox,***
***Səməd yox,***
***Əli Nazim yox,***
***Mehdi yoxdu,***
***Tək necə qayıdım o günlərə,***
***necə keçim o yolu?***

Əgər 1962-ci ildən 1964-cü ilə qədər, bəzi hallarda 1968-ci illərdə "Ədəbiyyat və incəsənət" qəzetini vərəqləsək, görərik ki, şairin ünvanına nə qədər tənqid dərc edilib, "Rənglər" silsiləsindəki şeirlərini sovet həyat tərzinin gerçəkliklərini düzgün əks etdirməyən "söz yığımı" adlandırıblar. Halbuki bu şeirlərdə siyasi heç bir şey yoxdur. Rənglərə poetik və fəlsəfi baxış var.

1962-ci ildə Rəsul Rza "Dünyanın dərdi" adlı şeirini yazırdı: "Bu gün var olan, bir gün yox olacaq axırısı, məni yatmağa qoymur dünyanın dərdi, torpağın ağrısı". Və bu dərd onun "Bəlkə də qaytardılar" adlı bir şeirində daha qabarıq şəkildə diqqəti çəkir:

***Bu nə mülk-maaş,***
***nə yatır,***
***nə dəyirman dərdi idi.***
***Bu, sorağı qanlı yollarda itən***
***insan dərdi idi.***

Bir çinar ömrünü əzəmətlə yaşayan Rəsul Rza yaddaşının "yapışqan-sədaqətindən" heç vaxt can qurtara bilməyib. Ona görə də onun şeirlərində həqiqət və anlamaq dərdi misra-misra, bənd-bənd çiçəkləyərək oxucusunu düşündürüb: "Yaddaş", "Din haqqında", "Darısqallıq", "Ömür keçdi, gün keçdi", "Mirzə Cəlilin niskilləri" kimi şeirlərində vahiməli, səksəkəli illərin hiddəti, ovqatı duyulur.

Xalq şairi Məmməd Araz 1970-ci ildə Rəsul Rzaya ünvanladığı məqaləsində yazırdı: "Rəsul Rzanın yaradıcılığı bir qitəni başdan-başa öyrənməyə bənzəyir. Ancaq bu qitədə xeyli ayaq dəyməmiş cığırlar var, sehrli çeşmələr, pusquda duran vulkanlar var... Sənətin mürəkkəb və keşməkeşli yollarında Rəsul Rza mənim üçün öz yüksək amalına xidmət etməyin ən gözəl örnəyi olmuş, ən gözəl örnəyidir və ən gözəl örnəyi kimi də qalacaq".

Rəsul Rza həm də sözdən rəssam kimi istifadə edərək yurdumuzun əzəmətli təsvirini məharətlə yaradırdı:

***Azərbaycan şahindir,***
***Dimdiyi göy sularda.***
***Qanadları göylərdə.***

Əlbəttə, ədəbiyyat tədqiqatçıları gözəl bilirlər ki, Rəsul Rza poeziyamızda hansı yeni nəfəsin, təzə üslubun banisidir, sərbəst şeirimizin yaradıcısıdır. Hələ ensiklopediya redaksiyasında çalışdığı illər, - keçmiş iş yoldaşları bunu Rəsul Rza həyatının qəhrəmanlıq dövrü adlandırırlar. Çünki Rəsul Rza təpədən dırnağa millətinə bağlı, onu ürəkdən sevən, sabahını düşünən şəxsiyyət olub.

Bu barədə saatlarla danışmaq olar. Amma böyük şairimizdən təkcə bunlar yadigar qalmayıb ki?! Ədəbiyyatımızda, mətbuatımızda, teatr-kino sənətimizdə, ictimai fikir tariximizdə möhtəşəm yeri olan Anar kimi bir oğulun da atası idi. Yazımızı da elə Anar müəllimin sözləri ilə bitirmək istəyirik:

**"Rəsul Rzanın bəzən tənqid hədəfinə çevrilməsindən üzülmürəm.**

**Əksinə, bu, mənim üçün Rəsul Rzanın diriliyinin daha bir sübutudur. Ölülərlə çarpışmazlar ki... Rəsul Rza yaradıcılığını tarixin arxivinə verməyə can atanlar tələsməsinlər. Aprelin 1-də vəfat edən Rəsul Rza mayın 19-da anadan olub".**

**Ömrü mübarizələrdə keçən Rəsul Rza həmişə canlı bir varlıq kimi savaş meydanında əzəmətlə dayanacaq. Axı özü də demişdi:**

***Mübarizə bu gün də var, yarın da,***
***Mən də onun ən ön sıralarında.***

● **Flora XƏLİLZADƏ,**
*Rəsul Rza mükafatı laureatı*